*Əl işdən soyumaz, ürək arzudan...*



# QƏBƏLƏ

**Qəbələ rayonunun ictimai-siyasi qəzeti**

*1933-cü ildən nəşr olunur*

**№ 94-95 (7143-7144)** • **Cümə, 20 dekabr 2013-cü il** • **Qəzet ayda 4 dəfə çıxır** • **Qiyməti 40 qəpik**


# XXI əsrin müqaviləsi imzalandı

***İlham ƏLİYEV:** «Bizim enerji strategiyamız dostluğa, əməkdaşlığa və qarşılıqlı dəstəyə əsaslanır. Azərbaycan öz tarixi ərzində heç vaxt öz enerji potensialından başqa məqsədlər üçün deyil, yalnız əməkdaşlığın möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli əlaqələrin daha məhsuldar qurulması və öz tərəfdaşlarının qarşılıqlı dəstəklənməsinin nümayişi üçün istifadə etməyə çalışıb».*





Dekabrın 17-də Bakıda, Heydər Əliyev Mərkəzində «Şahdəniz-2» enerji layihəsi üzrə yekun investisiya qərarının imzalanması mərasimi keçirilib.

Mərasim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı ilə başlayıb. Sonra Albaniyanın Baş Naziri Edi Rama, Bolqarıstanın Baş Naziri Plamen Qreşarski, Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili, Xorvatiyanın Baş naziri Zoran Milanoviç, Monteneqronun Prezidenti Fiilip Vüyanoviç, Böyük Britaniyanın, İtaliyanın xarici işlər nazirləri, Türkiyənin enerji və təbii sərvətlər naziri və digər maraqlı ölkələrin rəsmiləri, Azərbaycan Dövlət Neft Şirkətinin Prezidenti Rövnəq Abdullayev və BP şirkətinin baş icraçı direktoru Robert Dadli çıxış etmişlər.

«Şahdəniz-2» üzrə yekun insevtisiya qərarını Azərbaycan Dövlət Neft Şirkətinin Prezidenti Rövnəq Abdullayev və «Şahdəniz» üzrə Hasilatın Pay Bölgüsü Sazişi əməliyyatçısının prezidenti Qorden Birrel imzalayıblar.

Yeni əsrin müqaviləsi adlanan «Şahdəniz-2» müqaviləsinin imzalanması sübut edir ki, Azərbaycan özünün karbohidrogen ehtiyatlarının işlənməsi və nəqli üzrə uğurlu siyasətini davam etdirir. Bu sazişlə Azərbaycan Avropanın mühüm enerji təchizatçılarından biri olacaq, Avropa ilə hələ neft ixracından başlanmış tərəfdaşlıq böyük qaz ehtiyatlarının istismara verilməsi ilə daha da dərinləşəcəkdir.

«Şahdəniz-2» layihəsi üzrə yekun investisiya qərarının qəbul edilməsi Azərbaycanın uzun müddətli uğurlu iqtisadi inkişafını təmin edəcək. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sazişin imzalanma mərasimindəki çıxışı zamanı demişdir: «Mən bütün Azərbaycan xalqını bu münasibətlə təbrik etmək istərdim. Bu ölkəmizin uzunmüddətli, davamlı iqtisadi inkişafını təmin edəcək».

Prezident İlham Əliyev qeyd edib ki, bu gün Azərbaycanın enerji siyasəti ölkə iqtisadiyyatını dəyişdirməyə, onu şaxələndirməyə imkan verib. Azərbaycan müstəqillik əldə etdiyi anda özəl sektorda ümumi daxili məhsulun həcmi sıfır səviyyəsində idi. Bu gün iqtisadiyyatın 85 faizi özəl sektorda formalaşır. Nəticədə Azərbaycanda işsizliyin səviyyəsi 4,8 faizə, yoxsulluğun səviyyəsi 5,5 faizə düşmüşdür.

«Şahdəniz-2» enerji layihəsin imzalanması böyük iqtisadi inkişafa zəmin yaratmaqla bərabər ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da qaldırır. Ölkəmizin Avropaya inteqrasiyasının sürətlənməsini təmin edir. Belə ki, «Şahdəniz-2»nin işlənməsindən ildə 16 milyard kub metr qaz hasil ediləcək ki, bu Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya ərazilərindən və Adriatik dənizinin altından keçməklə İtaliyaya qədər 3500 km-dən artıq uzanan boru kəmərləri vasitəsilə demək olar ki, bütün Avropanı əhatə edəcək. «Şahdəniz-2» layihəsinin həyata keçirilməsi təsdiq edir ki, artıq Azərbaycan iri enerji təchizatçısına çevrilir və Avropanın mühüm bir hissəsinin qazla təchizatında əsas rol oynayacaq.

Məlumdur ki, bir neçə il əvvələdək Azərbaycannın Avropaya qaz nəqlində seçəcəyi marşrut da çox böyük maraq doğururdu. ABŞ və Avropa İttifaqı Azərbaycana «Nabukko» layihəsini qəbul etməsi üçün müəyyən təzyiqlər edirdilər. Bu layihə Rusiyanın maraqlarına zidd idi. Eyni zamanda Azərbaycanın hazırda seçdiyi marşrutlara nisbətən iqtisadi cəhətdən də əlverişsiz idi. Buna görə dəAzərbaycan dövləti və onun Prezidenti milli maraqlarımızdan çıxış edərək müstəqil qərar qəbul etdi. Ölkəmizin TANAP və TAP layihələrinə üstünlük verməsinin doğruluğunu sonradan Avropa İttifaqının yüksək səviyyəli rəsmiləri də etiraf etdilər.

Qeyd edilməlidir ki, TANAP və TAP marşrutu «Nabukko»dan 450 km qısadır. Bu da onun çəkiliş xərclərinin daha az olmasına şərait yaradır. Eyni zamanda Azərbaycanın seçdiyi marşrutla ölkəmiz öz qazını bir yox, bir neçə bazara çıxarmaq imkanı əldə edir. Belə ki, bir bazardan asılılıq ölkəmizə mavi yanacağın qiyməti ilə əlaqədar öz şərtlərini diqtə etmək imkanı vermirdi. İndi isə belə imkan yaranır.

Azərbaycan öz qazını Avropaya satmaq, avropalı tərəfdaşlarla əməkdaşlıq etməklə özünü Avropa ailəsinin bir parçası kimi görmüş olduğunu nümayiş etdirdi.

**Qüdrət SƏMƏDOV.**